## *Dilənçi gəlin*

Döyüldü qapımız bir səhər erkən,
Tələsdim açmağa təlaş içində.
Qaranlıq dəhlizdə onu görərkən
Işıqlı bir dünya uçdu içimdə.

Dayanmışdı sakit, məhzun, utancaq,
Soyuqdan, şaxtadan büzüşmüşdü bərk.
Böyrünə qısılmış beş yaşlı uşaq
Sallaq qaş altından baxır da hürkək.

Bir kömək... söylədi, qırıldı səsi,
Cevirdi üzünü xəcalətindən,
Sındı ürəyimin kövrək şüşəsi
O cavan gəlinin bu halətindən.

Nə qədər qəşəngdir boyu-buxunu!
Uyuşa bilmirdi bu sur-sinciyə.
Qəbahət olardı oxşatsam onu
Sırtılmış, adətkar bir dilənçiyə.

Yox, yox! Tanımadım mən...O, köçgün idi.
Tapdaqda qalmışdı yurdu-yuvası,
Götürüb qaçmışdı nə mümkün idi...
Hələ üzündəydi həya urvası.

Vaxt vardı, bilməzdi nədir qara gün,
Hamı bəxtəvərdən o, bəxtəvərdi.
Qayğısız keçərdi gənc ömrü bütün,
Naz-ne`mət gölünə düşüb üzərdi.

Xoşuna gəlməzdi zəfəranlı aş,
Yavanca çörəklə girlənir indi.
Saçları pırtlaşıq, paltarı nimdaş,
əlində torbayla hərlənir indi.

Ah, həyat! Nə yaman dönükmüş üzün?
Dünənin bu günə yoxdur bənzəri.
Ağlayır bir gözü, gülür bir gözü,
Sən necə bölürsən xeyirlə şəri?!

Eşit diləyimi, ey Ulu Tanrı!
Ölüm bıçağını vurma iliyə.
Yetər zillətlərin... lütf eylə barı,
Öyrətmə bu xalqı dilənçiliyə.

Əgər dilənirsə bircə gözəli
Demək, o millətin catıb əcəli.
İlahi, amandı xar etmə bizi,
Qoru təcavüzdən ismətimizi!!!

19 yanvar 1994.

Babanlı V. Dilənçi gəlin : şeir // Azərbaycan. – 1994. – 16 mart. – S. 4.